# Türk tarixi və mifoloji dünyagörüşündə atlar



**Hikmət Babaoğlu**
**siyasi elmlər doktoru, professor**

əvvəli ötən sayımızda

## "Divanü Lüğat-it-Türk"də atlar

*IX əsrdə yaradılmış və ilk türk-İslam dövləti olan Qaraxanilər imperiyası bəşər mədəniyyəti tarixində misilsiz rol oynamışdır. Hələ yeniyetmə çağlarında, 12 yaşında islamı qəbul edən Təgin (şahzadə) Satuk Buğra xan 96 il ömür sürmüş babası Köl Bilgə Qara xanın adı ilə adlandırılan Qaraxanilər dövlətinin sərhədlərini genişləndirərək şərqdə Kəşmirə, qərbdə Xarəzmə, şimalda Balxaş gölünə və Aral dənizinə, cənubda isə Mərvə qədər uzatmış, 3 milyon kvadrat kilometr ərazini əhatə etmişdir. Bu geniş coğrafiyada yaşayan buddizmdən şamanizmə, bütpərəstlikdənxristianlığa qədər ən müxtəlif dini inancın daşıyıcıları olan müxtəlif tayfa və xalqlara İslam dinini qəbul etdirmiş, möhtəşəm bir mədəni miras formalaşdırmışdır. Qaraxanilərin Səmərqənd, Buxara, Fərab (Otrar), Şaş (Daşkənd), Balasagun, Kaşğar və s. kimi dünyaca məşhur elm və mədəniyyət mərkəzləri var idi. 1008-ci ildə anadan olduğu təxmin edilən Mahmud Kaşğari (1008-1095) də Qaraxanilər kimi ulu bir soydan gələn, bu xanədana mənsub olan böyük alim, nadir zəka sahibi, mömin bir müsəlman idi. Kaşğarlı Mahmud bir sıra mötəbər ülamalara istinad edərək peyğəmbərimizin (s.) belə bir hədisinə öz kitabında yer vermişdir ki, 'Türk dilini öyrənin, çünki onlar üçün uzun sürəcək hökmranlıq vardır'. Daha sonra bu hədisin doğru olub-olmadığının vəbalını onu söyləyənlərin boynuna qoyaraq (görün nə qədər mömin bir insan olub!) deyir ki, əgər bu hədis doğru isə, türk dilini öyrənmək çox vacib bir işdir. Əgər doğru deyilsə, türk dilini öyrənməyi ağıl əmr edir. Bu fikirlərini M.Kaşğari sırf realist nöqteyi-nəzərdən söyləməklə XI əsrdə İslam coğrafiyasında əslində elə ərəb dili ilə bərabər türk dilinin də hakim olduğuna işarə edir. 'Türk və ərəb dillərinin atbaşı bərabər yürüdüklərini' bildirir. Ancaq tarix söylənən hədisin doğru olduğunu isbat etdi. Təkcə osmanlılar dünyaya 630 il hökmranlıq etdilər. Əgər ondan əvvəl Qaraxanilər, Səlcuqlular kimi imperiyaları da bura əlavə etsək, türklərin hakimiyyətinin ən azı 1000 il sürdüyünü deyə bilərik. Doğrudan da peyğəmbərimizə istinadən deyilmiş bu fikir nə qədər də peyğəmbərcəsinə imiş!*

Bir də dahi Kaşğari bildirir ki, "kitabda türklərin dünyagörüşlərini və bilgilərini göstərmək üçün onların şeirlərindən, qayğılı və sevincli günlərində yüksək düşüncələr ifadə edən hikmətli sözlərindən misallar verdim. Bunlar nəsillərdən-nəsillərə keçərək gəlmişdir". Bu sitatı biz də ona görə veririk ki, atlarla bağlı "Divanü Lüğat-it-Türk"dən verəcəyimz fikir və örnəklər sadəcə XI əsr türk həyatının deyil, daha qədim dövrlərə aid türk həyatının nümunələri kimi qəbul edilsin.



Çünki Kaşğarlı Mahmud da kitabda atlarla bağlı yazdıqlarının nəsildən-nəslə ötürülərək gəlib çıxdığını deyir.

Bu qısa girişi yazarkən beləbiz artıq türk dili və danışıq leksikonunda atlarla bağlı bir müqayisəni verməklə bu heyvanın dilimizdə özünüifadə zamanı bir nümunə təşkil etdiyini söylədik. M.Kaşğari ərəb və türk dillərini müqayisə edərkən onların atbaşı bərabər yürüdüyünü söylədi. Fikrimizcə pis başlanğıc deyil.

Azərbaycanın bir sıra qərb rayonlarında, o cümlədən, mənim doğulduğum kənddə də (Ermənistan Respublikası Amasiya rayonu Göllü kəndi) atın balasına kurrih deyirdilər. Doğrusu, bu sözün yad ünsür, yaxud jarqon ifadə, bəzən isə hətta ermənicə olduğunu düşünür, ədəbi dilimizə yaraşdırmırdım. Ancaq uşaq vaxtından işlətdiyim üçün mənə doğma idi. Bu sözdən imtina etmək mənə çətin gəlirdig- Və bir gün M.Kaşğarinin məlum kitabını oxuyarkən həmin sözə rast gəldimg Elə bil ki, düz 30 ildir gedib görə bilmədiyim kəndimdə mənə əziz olan bir daşla, bir ağac parçası ilə rastlaşdım! Kövrələrək bu cümləni təkrar-təkrar oxudumg "Türklər pauza (fasilə) vermək üçün sözlərin sonuna "h" hərfi əlavə edirlər, necə ki, şahini çağırmaq üçün tah-tah, dayçanı çağırmaq üçün kurrıh-kurrıh deyirlər". Qəbrin nurla dolsun,Kaşğarılı Mahmud! ***Daha sonra feillərdən yaranan isimlərdən danışan M.Kaşğari yazır ki, düşündükdən sonra 'anladı' mənasında işlədilən 'ögə' sözü də feildən əmələ gələn isimdir. Biz isə ağıllı atlara ögə, əkə at deyildiyini yazmışdıq. Bu söz də 4-5 yaşından sonra oturuşmuş, yerişini-duruşunu formalaşdırmış, yersiz itaətsizliyə və şıltaqlığa son verən atlara deyilir. Fikrimizcə, özbək qardaşlarımızın "əkə" sözü də elə "ögə" sözündən törəyib və hörmət əlaməti olaraq qarşılıqlı ünsiyyət zamanı iltifat bildirir yəni ağıllı, idraklı, başa düşən, anlayan, aqil mənasındadır! Amma daha dəqiq izah etmək istəsək, gərək "öq" yaxud "ög" sözünün daha qədim mənasını tapaq. Məsələ ondadır ki, arxaik türkcədə anaya "öq", ya da "ög" deyirdilər.*** "Ana" sözü xeyli sonralar yarandı. Biz bu gün "ög" kökünü sadəcə "ögey ana" birləşməsində istifadə edirik. Bir də anadan yetim qalan uşağa öksüz, yəni ögsüz, anasız deyərkən! Göründüyü kimi, burada da ög ana mənasını ifadə edir. Bir az da dərinə getsək,"ög" sözünün daha qədim olduğu başqa bir versiya irəli sürərək bu sözün Ulu dildən gələn söz olaraq başlanğıc, ilkin mənbə, həyat verən mənasını ifadə etdiyini iddia edə bilərik. Məsələn, ingilislər yumurtaya "eg" deyirlər...yəni həyat verən başlanğıc! Mahmud Kaşğari bildiklərini yazdıqdan sonra deyir ki, doğrusunu Allah bilir...biz də eyni fikri təqdir və təkrar edərək davam edək!

Mahmud Kaşğari sözlərin quruluşu haqqında yazarkən qeyd edir ki, söz ikihərfli və çoxhərfli (yeddiyə qədər) ola bilər. İkihərfli sözə misal gətirərkən ilk növbədə "at", sonra isə "ər" sözlərini göstərir. Deməli, belə başa düşmək lazımdır ki, bu iki söz çox qədim (təkhecalı sözlər ən qədim sözlərdir. Dil ünsiyyət vasitəsi kimi formalaşarkən ilkin mərhələdə mürəkkəb sözlər yaratmaq və onu ifadə etmək üçün boğazın anatomik quruluşu hələ uyğun deyildi) olmaqla bərabər həm də XI əsrdə ən çox işlənən sözlər olub. İsimlərdə səsartımı məsələsini izah edən müəllif bu zaman misalı yenə də atlardan çəkir. Qeyd edir ki, "ayğır" sözünə bəzi hallarda "h" səsi əlavə etməklə Adhğır kimi tələffüz olunur. Məğlub olmanı, əzilməni, xorlanmanı bildirmək üçün feillərə "k" artırıldığını bildirirg Və dərhal da yenə atlardan misal çəkir: "Yılkı yutu (k) dilxi arıqladı". Bu cür "k" artırması hazırda dilimizdə işlədilir. Məsələn, arıqlayan, yaxud əzilən, xorlanan adama filankəs yaman sınıxdı sın+ı+(k) deyirik. Elə buradaca olduqca məşhur olan bir dağ adının etimoloji izahını verməyi lazım bilirik. Niyə birdən-birə at mövzusundan dağ məsələsinə toxunmağımızın səbəbi odur ki, bu dağın adı, fikrimizcə, atla bağlıdır. Uşaqlığımdan bəri göylərə baş çəkərək öz vüqarlı duruşu ilə başı qarlı Ağrı dağını hər gün elə evimizin qabağından min dəfə seyr etmişəm. ***Günəşli havalarda hətta Ağrı dağının zirvəsindəki bəmbəyaz qarı da açıq-aydın görmək mümkün idi. Bu dağın adının niyə Ağrı olması haqqında ən müxtəlif versiyalar var. Ancaq nədənsə həmişə bu izahatlar mənə uydurma gəlirdi. Çünki bu izahatların əksəriyyətinin süjeti bir-birinə bənzəməklə təqribən belə idi ki, sevən bir gənc qızın sevgilisi Ağrı dağında borana düşüb ölür.*** Qız isə dağa qarğış edərək deyir ki, sənin də saçların ağarsın, göz yaşların mənimki kimi heç qurumasın. O vaxtdan da Ağrı dağının başından qar, yamaclarından axan sular əskik olmur. Daima ağlayır, ilin bəlli günlərində isə acı çəkən insan kimi inildəyir. Elə buna görədə dağa Ağrı dağı adı verilir. Digər bir versiya isə belədir ki, kiçik Ağrı dağı nə vaxtsa böyük Ağrının yanında, ona bitişik olub. Ya da ki, onun övladı olub. Sonradan onları bir-birindən ayırıb uzaqlaşdırıblar. Bu ayrılığın isə dağlara ağrı-acı verdiyi üçün biri Böyük Ağrı, digəri isə Kiçik Ağrı adlanır. Bütün bunlar öz yerində, ancaq, fikrimizcə, bu dağların adı bənzətmə əsasında yaradılıb və Ağrı dağı şahə qalxmış atın siluetinə bənzədiyinə görə onu Mahmud Kaşğarinin təqdim etdiyi qədim fonetik formada Adhğır adlandırıblar. Sonralar isə adhğır sözü Ayğır kimi tələffüz edilməyə başlayıb. Dağ adı isə əvvəlki fonetik formasını saxlayıb. Dil inkişaf edib, sürətli ifadə tərzi yaranan zaman Adhğır sözü yüngülləşdirilərək təhrifə məruz qalır və Ağrı kimi tələffüz edilir. Bu fikrimizi gücləndirmək üçün "Dədə Qorqud dastanı"ndan da bəzi örnək verməyimizin yerinə düşəcəyi qənaətindəyik: "İç Oğuz Dış Oğuzun asi olub Beyrəyin öldüyü boy"da Beyrək öləcəyini biləndə igidlərə vəsiyyət edərkən belə deyir:

**" ...Yigitlərim, yerünüzdən uri (erkən) durun,**
**Ağ-boz atumun quyruğun kəsin,**
**Arqubelli Ala dağdan dünin (gecə, qaranlıqda) aşın,**
**Xəbəri Qazan xana çatdırın."**

***Burada söhbətin məhz Ağrı dağından getdiyinə mənim heç bir şübhəm yoxdur. Çünki Ağrı dağ silsiləsindən olan dağlardan biri də Ələyəz dağıdır. Həmin dağın adı ilə bağlı olan mahal isə dağın ətəklərində yerləşdiyi üçün Dərə Ələyəz adlandırılırdı. Bu adın ilkin etimoloji strukturu belədir. Ala+yaz+ı. Burada "ala" rəng bildirir, "yazı" isə otlaq mənasındadır. Məsələn, Qara-yazı – yazı düzü və yaxud elə Alyaska kimi tanıdığımız ərazi də Ala-yaz sözündəndir. Ka isə slavyan əlavəsidir. Beyrək isə deyir ki, Arqubelli Ala dağdan keçin, yəni elə Kiçik Ağrıdan, Ələyəzdən keçin gedin, Qazana xəbər çatdırın. Arqu bel söz birləşməsi isə elə Ayğırbelli dağa işarədir yəni Böyük Ağrı dağının keçidi at belinə bənzədilir. Beləliklə, Mahmud Kaşğaridən "adhğır" sözü ilə,"Dədə Qorqud dastanı"ndakı "Arqu" belli ifadəsi bir-biri ilə səsləşir və ağrı dağının "adhğır" sözündən yarandığı barədə mülahizələrimizi təsdiq edir.***

*Günəşli havalarda hətta Ağrı dağının zirvəsindəki bəmbəyaz qarı da açıq-aydın görmək mümkün idi. Bu dağın adının niyə Ağrı olması haqqında ən müxtəlif versiyalar var. Ancaq nədənsə həmişə bu izahatlar mənə uydurma gəlirdi. Çünki bu izahatların əksəriyyətinin süjeti bir-birinə bənzəməklə təqribən belə idi ki, sevən bir gənc qızın sevgilisi Ağrı dağında borana düşüb ölür. Qız isə dağa qarğış edərək deyir ki, sənin də saçların ağarsın, göz yaşların mənimki kimi heç qurumasın. O vaxtdan da Ağrı dağının başından qar, yamaclarından axan sular əskik olmur. Daima ağlayır, ilin bəlli günlərində isə acı çəkən insan kimi inildəyir. Elə buna görədə dağa Ağrı dağı adı verilir. Digər bir versiya isə belədir ki, kiçik Ağrı dağı nə vaxtsa böyük Ağrının yanında, ona bitişik olub*

(davamı gələn sayımızda)